**AZƏRBAYCAN RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın və "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər"in təsdiq edilməsi haqqında" 2014-cü il 1 may tarixli 118 nömrəli, "Dövlət və bələdiyyə tərəfindən yaradılan ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi və "Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 21 yanvar tarixli 9 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2019-cu il 15 yanvar tarixli 7 nömrəli və "Dövlət və bələdiyyə tərəfindən yaradılan peşə təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi və "İlk peşə-ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 29 dekabr tarixli 359 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2019-cu il 26 fevral tarixli 65 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

"Dövlət rüsumu haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1620-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 24 iyul tarixli 1342

nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 547; 2015, № 8, maddə 974, № 11, maddə 1417; 2016, № 4, maddə 795, № 5, maddə 955, № 6, maddə 1192, № 9, maddə 1582, № 11, maddə 1938, № 12, maddə 2239; 2017, № 3, maddələr 473, 509, № 9, maddələr 1731, 1764; 2018, № 2, maddə 348, № 5, maddə 1117, № 6, maddələr 1359, 1361, № 9, maddələr 1911, 1931, № 11, maddə 2457; 2019, № 2, maddə 331, № 4, maddə 773, № 5, maddə 948) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın 8.1-ci bəndində "Milli Təhsil Məlumat Bazası" sözləri "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 yanvar tarixli 7 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 151) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.2.3-cü yarımbənddən "və elmi-pedaqoji" sözləri çıxarılsın;

2.2. aşağıdakı məzmunda 3.1.20-1-ci yarımbənd əlavə edilsin:

"3.1.20-1. "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nə və "Tələbə-məzun" dövlət elektron məlumat sisteminə qoşulmaq;".

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 26 fevral tarixli 65 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 361) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan peşə təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.1.5-ci yarımbənddə "istifadə etmək" sözlərindən sonra ", habelə təhsilalanları dərsliklərlə pulsuz təmin etmək" sözləri əlavə edilsin;

3.2. 3.1.14-cü yarımbənddə "Şagird-məzun" sözlərindən əvvəl "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nə və" sözləri əlavə edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 18 aprel 2020-ci il

№ 142